*https://doi.org/10.30546/114578.2025.9.1108*

# AZƏRBAYCAN MİLLİ MƏTBUATININ İLK QƏZETİ

**Qəribə Məmmədova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCID.org0000-0002-9062-4380*
*mammadovaqariba5@gmail.com*

**Xülasə**

"Əkinçi" qəzeti Həsən bəy Zərdabi tərəfindən yaradılmış, 1875-ci ildə Azərbaycanda nəşrə başlayan ilk milli qəzetdir. Həsən bəy Zərdabi iki il ərzində "Əkinçi"si ilə mətbuatın, qəzetin nə olduğunu xalqa göstərməyi bacardı. Onlarda milli şüurun oyanmasına və formalaşmasına təkan verdi. Ardınca başqa qəzetlərin çap olunması üçün cığır açdı, yol göstərdi. "Əkinçi"dən sonra Tiflisdə Azərbaycan dilində "Ziyayi-Qafqaziyyə", "Kəşkül" qəzetləri nəşr olunmağa başladı. Qığılcımını, alovunu "Əkinçi" qəzetindən almış bu mətbuat orqanları da, xalqın maariflənməsi üçün böyük işlər gördülər. Bir-birindən dəyərli yazılar dərc etdilər. Həmin qəzetin ilk nömrəsinin çap olunduğu iyulun 22-si Azərbaycanda "Milli Mətbuat Günü" kimi qeyd olunur.

**Açar sözlər:** Əkinçi, milli, qəzet, mətbuat, xalq, mənbə**,** fəaliyyət.

# THE FIRST NEWSPAPER OF THE AZERBAIJAN NATIONAL PRESS

**Gariba Mammadova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

"Ekinchi" newspaper was founded by Hasan bey Zardabi and started publishing in Azerbaijan in 1875. Only 56 issues of the newspaper were published and its activities were terminated in 1877. Hasan bey Zardabi managed to show the people what the press and newspaper were with his "Ekinchi" in two years. He gave them an impetus to awaken and form national consciousness. He then paved the way for the publication of other newspapers. After "Ekinchi", the newspapers "Ziyayi-Qafqaziyya" and "Kashkul" began to be published in the Azerbaijani language in Tbilisi. These press organs, which received their spark and fire from the "Ekinchi" newspaper, also did great work for the enlightenment of the people. They published

valuable articles. July 22, the day the first issue of that newspaper was published, is celebrated in Azerbaijan as "National Press Day".

**Key words:** "Ekinchi", national, newspaper, press, people, source, activity.

## ПЕРВАЯ ГАЗЕТА НАЦИОНАЛЬНОЙ ПЕЧАТИ АЗЕРБАЙДЖАНА

**Гариба Мамедова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Газета «Экинчи» была основана Гасан беком Зардаби и начала издаваться в Азербайджане в 1875 году. За два года своей газетой «Экинчи» Гасан-бек Зардаби сумел показать народу, что такое пресса и газета. Он дал толчок к пробуждению и формированию национального самосознания. Он проложил путь к изданию других газет. После «Экинчи» в Тбилиси стали издаваться газеты на азербайджанском языке «Зияйи-Кавказия» и «Кешкюл». Эти органы печати, вдохновлённые газетой «Экинчи», также проделали большую работу по просвещению народа. Они публиковали ценные статьи. 22 июля, день выхода первого номера этой газеты, отмечается в Азербайджане как День национальной печати.

**Ключевые слова:** Экинчи, национальный, газета, пресса, народ, источник, деятельность.

### Giriş/Introduction

Hər hansı bir ölkənin tarixinin öyrənilməsində müvafiq mənbələr xüsusi əhəmiyyət kəsb edir. Tarixi mənbə kimi nəinki təkcə tarixi sənədlərə, həmçinin ədəbiyyat, incəsənət, coğrafiya, dilçilik, dövlətçilik, hüquq, siyasətşünaslıq, mədəniyyətşünaslıq və s. kimi humanitar sahələrlə bağlı əsərlərə müraciət edilməsi təbiidir. Xalq öz ədəbiyyatını, tarixini bir-birindən təcrid olunmuş ədəbi fakt, yaxud hadisələr şəklində deyil, məhz düzgün elmi metodologiya əsasında, sistemli olaraq öyrənmək imkanına malik olmalıdır.

Həsən bəy Zərdabi bütün sahələrədə öz xalqına xidmət göstərməyə çalışırdı. Onun təkidli tələbləri nəticəsində şəhər dumasına seçilən azərbaycanlı üzvlərin sayı ümumi tərkibin yarısına çatdırılmışdı. "*Həsən bəy həmişə fəal vətəndaş mövqeyindən, milli maraq və mənafelərdən çıxış etmiş, erməni mafiyasının timsalında özünə çoxsaylı düşmənlər qazanmışdı. Amma bütün hədə və təqiblərə baxmayaraq, onu tutduğu yoldan, öz mübarizəsindən çəkindirmək mümkün olmamışdı"* [Cəfərov, 2001:66].

Zərdabi xalqın başına gələn fəlakətlərin və açılan oyunların əsas səbəbini savadsızlıqda, cahillik və fanatizmdə görürdü. Onun fikrincə, bütün bu bəlalardan xilas olmağın yeganə yolu geniş maarif şəbəkəsinin, qabaqcıl təhsil sisteminin qurulması idi.

Həsən bəy Zərdabi Azərbaycan millətini oyatmaq və maarifləndirmək üçün doğma ana dilində qəzet çap etmək qərarına gəlir. Bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani yaxından iştirak etmişdir. Qəzet bir neçə bölmədən ibarət idi: "Daxiliyyə", "Əkin və zirayət xəbərləri", "Elm xəbərləri", "Təzə xəbərlər". Qəzet sadə dildə yazılırdı, çünki adından da aydındır ki, əsasən kəndlilər və orta təbəqə əhali üçün yaranmışdı və qeyd etmək lazımdır ki, pulsuz paylanılırdı. Burada XIX əsrin ikinci yarısının görkəmli ziyalıları öz məqalələrini çap etdirirdilər. Moskvada təhsil alan Nəcəb bəy Vəzirov və Əsgər ağa Adıgözəlov "Əkinçi" qəzetinin fəaliyyətə başlaması xəbərini böyük sevinc hissi ilə qarşılamışdılar. Ə.Adıgözəlov mətbəə xərclərinin müəyyən hissəsini öz öhdəsinə götürmüş və rus dilində nəşr olunan mətbuat orqanlarından vacib xəbərləri tərcümə edib "Əkinçi"yə göndərirdi. "Əkinçi" qəzeti həftədə iki dəfə az tirajla çap olunurdu. Azərbaycandan başqa, "Əkinçi" Gürcüstanda, Dağıstanda, Özbəkistanda da yayılmağa başladı. Əsas mövzular çarizmə və köləliyə qarşı, haqsızlıqlara və milli oyanışa həsr olunurdu. Qəzetin mütərəqqi ideyaları çar hakimiyyətini narahat edirdi. 1877-1878-ci illərdə Rusiya-Türkiyə müharibəsinin başlanması ərəfəsində "Əkinçi"nin vəziyyəti daha da ağırlaşdı. Çar hökuməti qəzetin "türk-tatar" dilində çap olunması və azərbaycanlıların Türkiyə tərəfinə keçməsindən ehtiyat edirdi. Buna görə də 1877-ci ilin sentyabrında qəzetin nəşrini dayandırmaq haqqında hökumət sərəncam verdi [Qasımzadə, 1973:253].

İki ilə 56 nömrəsi çap olunan "Əkinçi" qəzetindən sonra ard-arda yeni-yeni qəzetlər, jurnallar çıxmağa başladı; 1879-cu ildə Hacı Səid Əfəndinin "Ziyayi-Qafqaziyyə" qəzeti, 1883-cü ildə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən Cəlal Ünsizadənin "Kəşkül" jurnal-qəzeti, 1903-cü ildə Məmmədağa Şaxtaxtinskinin "Şərqi-rus" qəzeti, 1906-cı ildə Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalı. 1918-ci ildə Şərqin ilk demokratik respublikası − Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Öz müstəqilliyini, siyasətini, azadlığını, hüquqlarını, iqtisadiyyatını, ictimai-siyasi proseslərə münasibətini nümayiş etdirmək üçün AXC dövründə mətbuat yenidən dirçəldi. Üzeyir Hacıbəyovun redaktorluğu ilə "Azərbaycan" qəzeti işıq üzü gördü.

H.Zərdabinin qəzetin məqsəd və vəzifələri, əhatə etdiyi məsələlər barədə konkret proqramı var idi. Həmin proqramı o, "Əkinçi"nin ilk nömrələrindən etibarən elan da etmişdi: "Hər bir vilayətin qəzeti gərək ol vilayətin sakinləri elədiyi işlər onlara lazım olan şeylər xülasə, onların hər bir dərdi nə xahişi ol qəzetdə çap olunsun ki, ol qəzətə baxan xalqı aynada görən kimi görsün". Belə aydın proqramla mətbuat aləminə qədəm qoyan "Əkinçi" sonadək öz prinsipinə sadiq qalmış ictimai-mədəni tərəqqi hərəkatında, milli şüurun tərbiyə edilməsində səfərbəredici rol oynamışdır.

"Əkinçi" qəzeti tarixi mənbə kimi bədii-tarixi tədqiqat materialıdır. Qəzetin müxtəlif saylarında Azərbaycanın, Dağıstanın, Osmanlı ərazisinin, o cümlədən dünyanın müxtəlif bölgələrində cərəyan edən tarixi prosesləri izləmək, dünya tarixinin bir çox problemlərini tədqiq etmək üçün kifayət qədər materiallar mövcuddur. Burada ən böyük tarixi hadisələrdən tutmuş, dünyanın, o cümlədən Azərbaycanın demoqrafik problemlərini əks etdirən geniş və zəngin məlumatlar yer alıb. Hətta tarixşünaslıqda həllini tapmayan bir sıra problemlərin, məsələn, demoqrafik, regionşünaslıq, mənbəşünaslıq və s. bu kimi məsələlərin araşdırılması üçün "Əkinçi" qəzeti zəngin materiala malikdir. Həsən bəy Zərdabi və "Əkinçi"nin digər əməkdaşları dövrün zəruri problemlərini görərək, onları qəzetin səhifələrində işıqlandırmışlar [Rüstəmov, 2003].

"Əkinçi" qəzetinin də dövrün reallığını əks etdirən xüsusi informasiya toplusu olduğunu deyə bilərik. Bu qəzet haqqında Ulu Öndər Heydər Əliyevin dedikləri tam həqiqətdir: "Fəxr edirik ki, bizim dünyəvi teatrın 130 illik tarixi vardır. Fəxr edirik və bu, bölgədəki bütün xalqlardan bizi fərqləndirir. O mənada ki, bizdə demokratik dünyəvi ideyalar bu günün, dünənin hadisəsi deyil. 125 il bundan öncə Həsən bəy Zərdabi, onunla bərabər Mirzə Fətəli Axundov və başqaları toplaşıb – təbiidir ki, Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin yaradıcısıdır – belə bir təşəbbüslə çıxış ediblər [5].

"Əkinçi"də o dövrün azərbaycanlısının təsəvvürlərini genişləndirməyə, onu dünyada gedən proseslərdən xəbərdar etməyə yönələn onlarla yazı, məqalə çap olunmuşdu. "Əkinçi" sözünün adı təsadüfi seçilməmişdi. Bu adın qəzetin yalnız aqrar istiqamətini müəyyənləşdirdiyini düşünmək olmaz. "Əkinçi" sözünün altında böyük rəmzi məna, geniş və əhatəli fəaliyyət proqramı gizlənirdi. Azərbaycan kəndlisini təkcə daha yaxşı, çağdaş üsullar əsasında daha səmərəli, daha keyfiyyətli işləməyə öyrətmək yox, həm də onun ürəyinə, şüuruna maarif toxumu səpmək lazım idi.

"Əkinçi" qəzeti XIX əsrin ikinci yarısında yalnız Azərbaycan tarixinin deyil, eləcə də o dövrdə bütün dünyada baş verən ictimai-siyasi proseslərin düzgün qiymətləndirilməsi, iqtisadi və mədəni hadisələrin öyrənilməsi, tarixi həqiqətlərin üzə çıxarılması üçün əvəzsiz və qiymətli mənbədir.

**Nəticə /Conclusion**

XIX əsrin ikinci yarısında Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür.

"Əkinçi" qəzetindən başlanan müqəddəs yol bu gün də uğurla davam etdirilir. Gündən-günə iqtisadi qüdrəti artan dövlətimizin dəstəyi sayəsində milli mətbuatımız daim inkişafda və tərəqqidədir. İlk mətbuatımızın nəşrə başladığı vaxtdan 150 il keçməsinə baxmayaraq, "Əkinçi"dən düşən nur bu gün də mətbuatın yolunu işıqlandırır.

## ƏDƏBİYYAT/REFERENCES

1. Cəfərov, N. (2001). Azərbaycan: Dil, ədəbiyyat və mədəniyyət. − Bakı: "Elm". − 392 s.

2. Qasımzadə, F. (1973). XIX əsrin Azərbaycan ədəbiyyatı tarixi. − Bakı: "Elm". − 487 s.

3. Məmmədov, X. (1987). "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. − Bakı: "Elm". − 258 s.

4. Rüstəmov, İ. (2003). Bir daha "Əkinçi" haqqında (Ə.Topçubaşov və bir sıra yeni məqamlar). – Bakı: BakıUniversitetinin Xəbərləri, Humanitar elmlər seriyası. − № 3.

5. "Azərbaycan" qəzeti, 2000-ci il, 25 iyul (Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibətilə Respublika Prezidenti H.Əliyevin jurnalistlərlə görüşündəki nitqi).

6. https://president.az/az/articles/view/68659

**Məqalə tarixçəsi**
*Daxil olub* *03.09.2025*
*Qəbul olunub* *15.09.2025*
*Nəşrə tövsiyə edib* *Tamilla Vahabova*
*pedaqogika elmləri doktoru, dosent*